BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Humanitar elmlər seriyası 2010*

# M.F.AXUNDZADƏNİN TƏNQİDİ-ESTETİK GÖRÜŞLƏRİNİN ÖYRƏNİLMƏSİ (KAMAL TALIBZADƏNİN VƏ KAMİL VƏLİYEVİN TƏDQİQATLARI ƏSASINDA)

**S.N.MEHDİYEVA**
***AMEA Nizami adına Ədəbiyyat İnstitutu***
***sevhuseyn@yahoo.com***

*1970-80-ci illərdə Azərbaycan ədəbiyyatşünasları yazıçının bədii yaradıcılığı ilə bərabər onun ədəbi-tənqidi məqalələrini və publisist əsərlərini də elmi tədqiqata cəlb etmiş, yazıçının ədəbi görüşlərinin öyrənilməsinə xüsusi diqqətlə yanaşmışlar. Bu baxımdan K.Talıbzadə, Y.Qarayev, Elçin, N.Məmmədov, Ş.Salmanov, A.Səfiyev, Z.Əsgərli, B.Məmmədzadə kimi alimlərin məqalə və kitabları çox əhəmiyyətlidir. Bu əsərlərdə yazıçının bədii ədəbiyyat, nəzm və nəsr, dram sənəti, Avropa ədəbiyyatına münasibəti, Şərq və Qərb klassik sənətkarları haqqında fikirləri onlarla yaradıcılıq əlaqələri, bəhrələnmə yolları kimi məsələlərdən söhbət açılmış, yazıçının ədəbi görüşlərinin mənbələri və orijinal çalarları göstərilmişdir.*

*Bu cəhətdən K.Talıbzadənin fəaliyyəti xüsusi qeyd edilməlidir. O, M.F.Axundzadə ədəbi tənqidi görüşlərinin ən kamil tədqiqatçısıdır.*

K.Talıbzadənin 1980-ci illərdə çap etdirdiyi əsərlərində (8, 41-77; 9) M.F.Axundzadənin milli tənqid tarixində mövqeyi və tənqidi görüşləri haqqında deyilən fikirlərin əksəriyyəti onun əvvəlki tədqiqatlarının məhsulu idi. K.Talıbzadə hələ 1960-cı illərdə mütəfəkkir yazıçının ədəbi-tənqidi görüşləri barədə geniş elmi söhbət açmış, onu milli ədəbi tənqidin banisi kimi qiymətləndirmişdi (11). Lakin 1970-80-ci illərdə ədəbi tənqidə və onun tarixinin öyrənilməsinə elmi marağın artması ilə bağlı olaraq, K.Talıbzadə tədqiqatlarını daha da dərinləşdirmiş və «Azərbaycan ədəbi tənqidinin tarixi» (1984) monoqrafiyasında M.F.Axundzadənin, ümumiyyətlə ictimai fikir, o cümlədən ədəbi tənqid tarixində mövqeyini, M.F.Axundzadə tənqidinin konsepsiyasını və pafosunu daha əsaslı şəkildə aydınlaşdırmışdır.

Əvvəlki tədqiqatlarından fərqli olaraq «Azərbaycan ədəbi tənqidinin tarixi» monoqrafiyasında M.F.Axundzadənin ədəbi-tənqidi görüşlərindən daha geniş kontekstdə söhbət açır. O, Mirzə Fətəlinin ədəbi görüşlərini ümumiyyətlə yazıçının ictimia fəaliyyətinin tərkib hissəsi kimi öyrənir: «M.F.Axundov sözün əsl mənasında böyük ictimai xadim idi. O, bütün fəaliyyətini xalq taleyi ilə bağlamışdı. Hər işdə ancaq ümumi mənafeyini nəzərdə tuturdu. Nə edirsə-etsin, nədən yazırsa-yazsın, bir vətənpərvər kimi o, xalqı, onun həyatını, gələcəyini düşünür, bunun üçün əlindən gələni əsirgəmirdi. Fəlsəfi əsərlərini də, ictimai-siyasi mövzuda yazılmış məqalələrini də Axundov bu məqsədlə yazmış, əlifbanın dəyişdirilməsi uğrunda apardığı

mübarizəyə də bu məqsədlə qoşulmuşdu... M.F.Axundovun ədəbi-tənqidi görüşləri də ümumi ictimai fəaliyyətinin ayrılmaz bir hissəsidir» (8, 47).

M.F.Axundzadənin ədəbi-tənqidi görüşlərini tədqiq edərkən K.Talıbzadə bu görüşləri onun estetik-fəlsəfi düşüncələri ilə möhkəm əlaqədə, yazıçının fəlsəfi irsinin tərkib hissəsi kimi şərh edir. Belə yanaşma üsulu alimə bir tərəfdən yazıçının ədəbi tənqid konsepsiyasının mahiyyətini, digər tərəfdən onun mənbələrini düzgün müəyyənləşdirməyə və izah etməyə imkan verir. Alim doğru deyir ki, «M.F.Axundzadənin ədəbi görüşləri onun fəlsəfi mövqeyinə, materialist dünyagörüşünə söykənirdi» (8, 53). Tədqiqatını belə düzgün nəzəri konsepsiya üzərində davam etdirən «K.Talıbzadə monoqrafiyanın XIX əsr Azərbaycan ədəbi tənqidinə həsr olunmuş hissəsində maarifçi-realist tənqid konsepsiyasının yaranması, bu sahədə M.F.Axundovun misilsiz tarixi rolu və fəaliyyəti, Axundovdan sonrakı dövrlərdə onun yaratmış olduğu tənqid məktəbinin maarifçi-realist ədəbiyyat uğrunda mübarizəsi kimi əhatəli, konseptual ədəbiyyatşünaslıq məsələlərini qoyub zəngin faktiki material, dövrün siyasi-ictimai kontekstində həll etməyə nail olmuşdur» (6, 68).

Yazıçının ədəbi görüşlərini onun estetik-fəlsəfi irsi ilə vəhdətdə araşdıran K.Talıbzadə monoqrafiyada tənqid və estetika məsələlərini əsaslı və geniş şəkildə qoymuş, dövrün ictimai fikir aləmi ilə əlaqələndirmişdir. Tədqiqatçı doğru qeyd edir ki, ictimai-siyasi məsələləri, maarifçilik, təbiət hadisələrini elmi-fəlsəfi mövqelərdən izah edən Axundzadə estetikasının problemlərinə də eyni mövqelərdən yanaşmışdır. Bu da ona Azərbaycanda realist ədəbi tənqidin əsasını qoymağa imkan yaratmış və o, Yaxın Şərqdə bədii fikri yeni bir inkişaf mərhələsinə yüksəltmişdir (8, 53-55).

Tədqiqatçı doğru olaraq belə qənaətə gəlir ki, «Axundzadə bədii irsində olduğu kimi, tənqidi görüşlərində də realist maarifçiliyin əsas prinsiplərini gözləmişdir» (10, 237). O, M.F.Axundzadənin ədəbiyyat məsələlərinə dair bütün fikirlərini araşdıraraq yazıçının sənətdən tələb etdiyi – ağlın qəbul edə biləcəyi real gerçəkliyin təsviri; tipik həyat hadisələrinə əsaslanmaq; komik səhnə və situasiyalara, tənqid və satiraya geniş yer vermək; məzmun və forma vəhdəti; nikbin final və müsbət qəhrəman problemlərini mütəfəkkirin maarifçi realizm nəzəriyyəsinin əsas əlaməti hesab edərək ədəbi-tənqidi irsini bu müstəvi üzərində şərh edir.

M.F.Axundzadəni professional tənqidin banisi hesab edən K.Talıbzadə ilk dəfə Axundzadə əsərlərində tənqidin üç növünü müəyyənləşdirir: «həyata, cəmiyyət hadisələrinə tənqidi münasibət», «ədəbiyyatın tənqidi xarakteri» və «tənqid bir elm kimi» (9, 13).

Əslində müəllifin irəliyə sürdüyü tənqidin üç növü – sonuncu növ kimi götürülən Axundzadə tənqidinin tərkib hissəsidir. Tənqid elminin şərhini verən bir tənqidçi, əlbəttə, cəmiyyətdəki naqisliklərə etirazını bildirməmiş qalmayacaqdır, bədii sənətdə də bu prinsipi qoruyacaqdır. Burada tənqid nəyi və hansı üsullarla tənqid edəcək məsələsi qoyulur. K.Talıbzadənin birinci növ kimi irəli sürdüyü maddə tənqidin obyektini təşkil edir. Digər iki növ isə vasitə xarakteri daşıyır. Birincisi, bədii ədəbiyyat vasitəsilə, ikincisi tənqidin özü vasitəsilə aparılmışdır. Məhz buna görə də Axundzadə yaradıcılığında tənqidin iki növü fərqlənir.

Ümumiyyətlə, «Azərbaycan ədəbi tənqidinin tarixi» monoqrafiyasında M.F.Axundzadənin ədəbi tənqidi fikir və mülahizələri ətraflı tədqiq olunmuşdur. Bu məziyyəti yüksək dəyərləndirən Ş.Salmanov doğru deyir ki, M.F.Axundzadə tənqidinin, demək olar ki, heç bir mühüm, əsas məsələsi K.Talıbzadənin monoqrafiyasında

nəzərindən yayınmayıb. Tədqiqatçı bu məsələlərin təxminən hamısını əhatə etməyə, onlara münasibət bildirməyə çalışıb və bu məqsədinə nail olub. «Lakin həmin məsələlər içərisində bir sıra ümumiləşdirici, konseptual xarakterli məsələlər vardır ki, müəllif öz diqqətini bu məsələlər ətrafında daha artıq cəmləşdirib, onları konkret, müfəssəl aydınlaşdırmağa, geniş ədəbi-tarixi əhatəliliyi ilə tədqiqatı əhəmiyyətli dərəcədə dərinləşdirə bilibdir. Bunlar… birinci növbədə, Axundov tənqidinin mənbələri, bu tənqidin hansı ədəbi-tarixi ənənə, material, hansı bədii yaradıcılıq təcrubəsi əsasında formalaşmasıdır; Axundov tənqidinin mövzusu, predmeti və problematikası məsələsidir, nəhayət, bu tənqidin əsas estetik kateqoriyalarıdır» (6, 69).

Bu kateqoriyalar içərisində sənətin həyata, varlığa münasibəti, ədəbiyyatın mahiyyəti, cəmiyyətdə rolu, realizm, klassik sənətkarların bədii fikir tarixində mövqeyi, məzmun və forma mühüm yer tutur. Monoqrafiyada həmin məsələlər haqqında M.F.Axundzadənin fikir və mülahizələri geniş elmi təhlildən keçirilir. Bütün bu məziyyətlərinə görə «Azərbaycan ədəbi tənqidin tarixi» monoqrafiyası elə çap olunduğu zaman ədəbi fikrin diqqətini cəlb etmiş, Z.Əsgərli, S.Osmanlı kimi tədqiqatçılar mətbuatda dərc etdirdikləri rəylərində kitabı yüksək dəyərləndirmişlər (7, 125-127).

M.F.Axundzadənin tənqid irsinin təhlilinə həsr edilmiş elmi əsərlər içərisində Kamil Vəliyevin «Böyük mütəfəkkir» məqaləsi seçilir (12, 20-30).

Sələflərinin fikir və mülahizələrini davam və inkişaf etdirən K.Vəliyev də haqlı olaraq Mirzə Fətəlinin tənqidi yaradıcılığını, estetik baxışlarını onun ümumi ictimai və siyasi-fəlsəfi görüşlərinin «ayrılmaz parçası», «üzvi tərkibi» hesab edir. O, doğru deyir ki: «M.F.Axundova qədər sistemli elmi tənqid, müəyyən metoda əsaslanan konseptual ardıcıllıq yox idi və Mirzə Fətəli nəzəri məsələləri, qeydləri, məktubları ilə bu gün anladığımız mənadakı tənqidin (kritikanın) bünövrəsini qoydu… Elmi nəzəriyyə ilə bədii təcrübənin vəhdəti olan Mirzə Fətəli yaradıcılığı bu böyük sistemin təkamülünü izləmək, onun qadir gücünü öyrənib dərk etmək baxımından xüsusilə maraqlıdır» (12, 20-30).

K.Vəliyev özünün qeyd etdiyi «böyük sistemin təkamülünü» izləmək üçün yazıçının əsərlərində təsadüf edilən ən kiçik detaldan başlamış onun qaldırdığı əsas problemlərə qədər əsas məsələləri təhlilə cəlb edir. Müəllif ilk növbədə M.F.Axundzadənin işlətdiyi «tənqid» və «kritika» terminlərinin məna tutumunu aydınlaşdırır. K.Vəliyevə görə Mirzə Fətəli «tənqid sözünü daha geniş mənada alır, dövrün, zəmanənin, bədxahlığın, ictimai yaramazlığın, nadanlığın ifşasının satirik üsülla açılıb göstərilməsini nəzərdə tutur. Bu mənada tənqid daha çox tənqidi realizm anlayışını ifadə edir ki, müəllif həmişə onu moizəçiliyə, nəsihətçiliyə qarşı qoyur» (12, 20). «*Kritika terminini isə M.F.Axundov məhz ədəbi tənqid* (kursiv K.Vəliyevindir - S.M.) *mənasında işlədir*» (12, 21).

Məqalədə tənqidin funksiyası, onun Avropada geniş yayılması, ədəbi prosesdə rolu, bədii gedişatın inkişafına xeyirli təsiri barədə M.F.Axundzadənin fikirləri konkret təhlilini tapır. Məlumdur ki, Mirzə Fətəli tənqidin inkişaf etməsi və ədəbi prosesə rasional təsir göstərməsi üçün fikir azadlığını əsas şərtlərdən hesab edir və yazırdı: «Fikir azadlığı olsa, kritikanın faydası o olacaqdır ki, nəhayət, get-gedə müxtəlif fikir və rəylərin toqquşmasından haqq yerini tutacaq və mədəniyyət aləmində tərəqqiyat zühur edəcəkdir» (1, 259).

K.Vəliyev yazır ki, fikir azadlığından danışarkən M.F.Axundzadənin «kritikanı yad etməsi təsadüfi deyil… Haqqın yerini axtaran böyük maarifçi filosof (yəni

M.F.Axundzadə - S.M.) söz sənətinin ictimai funksiyasını yüksək qiymətləndirir, mübarizə üçün həlledici vasitələrdən biri hesab edir» (12, 21). Məqalədə K.Vəliyev M.F.Axundzadəni «ədəbiyyat və sənət məsələlərinə biganə, soyuq yanaşmağı bacarmayan» mütəfəkkir yazıçı kimi qiymətləndirir, ədibin yaradıcılıq metodu, şeir sənəti, ədəbi növləri, forma və məzmun məsələsi, teatr və dramaturgiya haqqında fikirlərinin konkret təhlilini verir. Öz mülahizələrini əsaslandırmaq üçün tədqiqatçının tez-tez M.F.Axundzadənin «Fehristi-kitab», «Mollayi-Ruminin və onun təsnifinin babında», «Nəzm və nəsr haqqında», «Kritika», «Tənqid risaləsi» kimi əsərlərinə istinad etməsi məqalənin elmi tutumunu artırır.

M.F.Axundzadənin ədəbi-tənqidi görüşlərinin təhlilinə həsr olunmuş əsərlərdən K.Vəliyevin məqaləsini fərqləndirən ən mühüm cəhət orada yazıçının dil və üslub haqqında fikirlərinin təhlil edilməsidir. Doğrudur, bu məsələnin qoyuluşu yeni deyil. Hələ 1940-cı, hətta 1930-cu illərdən başlayaraq, M.F.Axundzadənin ədəbi dil, yazıçı üslubu, əlifba haqqında fikirləri elmi tədqiqat predmeti olmuş, Ə.Dəmirçizadə, M.Cahangirov, E.M.Əlibəyzadə kimi alimlər bu haqda ətraflı elmi söhbət açmışlar (3; 4; 2; 5).

K.Vəliyev isə həmin fikirləri tənqidi təhlildən keçirməklə daha da konkretləşdirmişdir. O yazır: «M.F.Axundovun ədəbi tənqid sistemində ən mühüm komponentlərdən biri dil və üslub məsələləridir» (12, 30). Tədqiqatçı bunu təsadüfi saymır və doğru qeyd edir ki: «Müasir Azərbaycan milli ədəbi dilinin banisi M.F.Axundov dil məsələlərinə qətiyyən biganə qala bilməzdi. Çünki «milli özünüdərk prosesində anadilli ədəbiyyatın varlığı mühüm şərtdir. Və belə bir ədəbiyyat qabaqcıl qayələrin ifadəsinə çevrildikdə, xalqın duyğularını real şəkildə əks etdirən də öz yüksək vəzifəsini həyata keçirmiş olur» (12, 30).

Məqalədə Mirzə Fətəlinin ədəbi dil, orfoqrafiya qaydaları, bədii tərcümə zamanı fikrin dəqiq verilməsi üsulları, danışıq dili, şifahi nitq haqqında mülahizələri özünün konkret şərhini tapır. Həmin mülahizələri müasirlik baxımından qiymətləndirən K.Vəliyev belə qənaətə gəlir ki, M.F.Axundzadənin «müdrik məsləhətləri, elmi göstərişləri Azərbaycan ədəbi dilinin sonrakı bütün tarixi dövrlərdəki fəaliyyəti üçün, eləcə də bu gün üçün əsl elmi proqramdır» (12, 31).

M.F.Axundzadənin ədəbi-tənqidi məqalələrinin mövzu-maraq dairəsini, yazıçının tənqidinin predmetini düzgün müəyyənləşdirən K.Vəliyev onun tənqid üslubunu da elmi obyektivliklə səciyyələndirir: «Mirzə Fətəlinin tənqid üslubu ardıcıllığı, dəmir məntiqi, cəsarəti və yeri gəldikdə sərtliyi ilə seçilir. O, Şərq filosoflarının «qorxaqlıq və cəsarətsizlik» etdikləri üçün xalqdan uzaq düşdüklərini göstərir… Süruşun şeirlərini tənqid edərkən Mirzə Fətəli qələmi sərt və amansızdır, yeni əlifba düşmənlərinə qarşı Mirzə Fətəli sözü bıçaq kimi iti və kəskindir. Sənətin və elmin ictimai-əxlaqi, siyasi-məfkurəvi rolunu ön planda görüb götürən dahi yazıçının sərt ifadə tərzi apardığı əməliyyatın düzlüyünə, doğruluğuna qəti inanan cərrahı xatırladır: çürümüş hər şeyi kəsib atmalı, orqanizmi qoruyub saxlamalı!» (12, 32).

Məqalənin sonunda M.F.Axundzadənin ədəbi görüşləri haqqında K.Vəliyevin söylədiyi ümumiləşdirici fikirlər də obyektiv səslənməklə bərabər ədibin milli ictimai fikir tarixində mövqeyini düzgün müəyyənləşdirir. Tədqiqatçı yazır: «Dahi sənətkarın, böyük mütəfəkkirin, yorulmaz maarifçi-demokratın ədəbi-tənqidi, estetik baxışları yeni Azərbaycan ədəbiyyatının bünövrəsini qoymaq işində misilsiz rol

oynadı, eyni zamanda bu məqalələr, əsərlər milli elmi tənqidin ilk təməl daşı oldu» (12, 33).

## ƏDƏBİYYAT


1. Azərbaycan ədəbiyyat tarixi. 6 cilddə, IV c., Bakı: Elm, 2004, 759 s.
2. Axundzadə M.F. Seçilmiş əsərləri. 3 cilddə, I c., Bakı: Şərq-Qərb, 2005, 295 s.
3. Axundzadə M.F. Seçilmiş əsərləri. 3 cilddə, II c., Bakı: Şərq-Qərb, 2005, 374 s.
4. Axundzadə M.F. Seçilmiş əsərləri. 3 cilddə, III c., Bakı: Şərq-Qərb, 2005, 295 s.
5. Cahangirov M. M.F.Axundov dram əsərlərinin dili üzərində necə işləmişdir. Bakı: Azərnəşr, 1962, 254 s.
6. Dəmirçizadə Ə. M.F.Axundov dil haqqında və M.F.Axundovun dili. Bakı: Azərnəşr, 1941, 44 s.
7. Dəmirçizadə Ə. M.F.Axundovun Azərbaycan ədəbi dilinin inkişafında rolu. «Ədəbiyyat» qəz., Bakı, 1938, 12 avqust
8. Əlibəyzadə E.M. M.F.Axundovun dram əsərlərinin dili haqqında // Azərbaycan dili və ədəbiyyatı tədrisi jurnalı. Bakı, 1962, №4, s. 68-71.
9. Salmanov Ş. Akademik Kamal Talıbzadə. Bakı: Azərnəşr, 1998, 214 s.
10. Османлы С., Аскерли З. Прослеживая истоки. «Литературный Азербайджан», 1985, № 11, с. 45-62.
11. Talıbzadə K. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı: Azərnəşr, 1984, 340 s.
12. Talıbzadə K. Realist tənqidin bayraqdarı // Ulduz jurnalı, Bakı, 1982, №10
13. Talıbzadə K. Seçilmiş əsərləri: 2 cilddə. II c., Bakı: Azərnəşr, 1994, 428 s.
14. Talıbzadə K. XX əsr Azərbaycan ədəbi tənqidi. Bakı: Azərnəşr, 1966, 360 s.
15. Vəliyev K. Böyük mütəfəkkir. «Fikir karvanı». Bakı: Azərnəşr, 1984, 210 s.


## ИЗУЧЕНИЕ КРИТИЧЕСКО-ЭСТЕТИЧЕСКИХ ВЗГЛЯДОВ М.Ф.АХУНДЗАДЕ (НА ОСНОВЕ ИССЛЕДОВАНИЙ КЯМАЛА ТАЛЫБЗАДЕ И КЯМИЛЯ ВЕЛИЕВА)


**С.Н.МЕХТИЕВА**


### РЕЗЮМЕ


В 1970-80-ые годы азербайджанские литературоведы наряду с художественным творчеством писателя привлекли к научному исследованию и его литературно-критические статьи и отнеслись с особым вниманием к литературным воззрениям писателя. С этой точки зрения исследования Кямала Талыбзаде и Кямиля Велиева имеют очень важное значение.

К.Талыбзаде в своей монографии «История литературной критики в Азербайджане» в ещё более широком контексте раскрывает литературно-критические воззрения М.Ф.Ахунзаде.

Продолжавший и развивавший мысли и высказывания современников, К.Велиев по праву считает критическое творчество, эстетические взгляды «составной частью» его общественных и политико-философских взглядов.

# THE STUDY OF CRITICAL-AESTHETIC VIEWS OF M.F.AKHUNDZADEH (ON THE BASE OF INVESTIGATIONS BY KAMAL TALIBZADEH AND KAMIL VALIYEV)

**S.N. MEHDIYEVA**

## SUMMARY

In 1970-80-s the Azerbaijan writers along with art creativity of the writer, also involved his articles of literary criticism in scientific researches. Art representations of the writer were concerned by special attention. From this point of view, Kamal Talybzade's and Kamil Valiyev's researches are very important.

K.Talybzade in the monography of "History of literary criticism of Azerbaijan", opens a wide conversation on literary criticism of M.F.Akhundzade.

Continuing and developing the contemporary's views and thoughts, K.V.Aliyev appraises the writer's creativity, aesthetic views as "constituent elements" of his social and political – philosophic views.